

GÜLŞƏN

## AYDIN

Zaman güclü bir axın,
Daşım başlara dəydi.
Bəzən burulğanında
Başım daşlara dəydi.

Şər xeyiri alədi,
Haqlı imdad dilədi.
Dil çaşıb dolaşsa da,
Yenə yalan söylədi.

Yol ayrıcında qalıb
Dolanbacın seçmişəm.
Kədərimin əyninə
Sevincdən don biçmişəm.

## BU YOL HARA APARIR?

Döngələri dolanbac,
İstər yeri, istər qaç.
Bir sərin mehə möhtac;
Bu yol hara aparır?

Bulud var, yağışı yox,
Möhnəti, qüssəsi çox.
Ac olsa da, gözü tox;
Bu yol hara aparır?

Od çevrilib köz olur,
Dağ əriyib düz olur.
Dinməsən də, söz olur;
Bu yol hara aparır?

Qəribəm buralarda,
İz də yoxdur cığırda.
Azıb qalmışam darda
Bu yol hara aparır?

Baş ayaqdır çiyində,
Acı var kötəyində.
Əllərim ətəyində, -
Bu yol hara aparır?

* * *

Gözüm qara ləkəni
Tərtəmiz, bəyaz görür.
Qurumuş, boz düzəni
Gül-çiçəkli yaz görür.

Ağlım hissimi aşdı,
Yol vermədim talana.
Sözüm təsəlli oldu
Bir od-ocaq alana.

Qarışıq yollarıma
Sığal çəkdi əllərim.
Gülüstana çevirdi
Səhranı söz güllərim.

Könlümün bağçasına
Gözəlliklər əkmişəm.
İçimdəki qəzəbi
Çoxdan dara çəkmişəm.

## ÖMÜR

Yola bir kələf atdım;
Kələfim yaman çaşdı.
Ay-ilimi topladım,
Günlər həftəni aşdı.

Sükut... Saat... Bir də mən...
Zaman boşluğa düşdü.
Bərk yapışmaq istədim,
Aylar, illər aldadıb
əllərimdən sürüşdü.

Dönüb geriyə baxdım
Bir topa xəzəl gördüm.
Ömrümün ağacından
tökülmüş yarpaqları
bir rəqəmə süpürdüm.

Payızdırmı, qışdırmı?
Heç özüm də bilmirəm.
Deyəsən, yavaş-yavaş
Sağollaşıb gedirəm.

## ARZULAR

Yaman qəribsəmişəm,
Yazın həsrətindəyəm.
Könülləri oynadan
Sazın həsrətindəyəm.

Yaşıl, məxməri otlar
Bürüsün yamacları.
Çiçəklər rəqs eləsin
Bənöşəyi, ağ, sarı...

Oğrun baxan Günəş də
Dursun tamaşasına.
Hərdən oynayan külək
çiçəklərdən bir ləçək
ərməğan da aparsın
qarlı dağlar başına.

Ağaclara dost olub
Ümidlər çiçəkləsin.
Arzu ağaclarını
Tumurcuqlar bəzəsin.

Əməllər çiçəkləsin.
Doğmalaşsın sərt üzlü,
Özünə şad adamlar.
Baxışlarla isitsin
Sınıq ürəkliləri
Doğma və yad adamlar.

Yaz günəşi könlümün
Sal buzunu əritsin.
Üşüyən ürəyimin
Qubarı ötüb keçsin.

Yaman qəribsəmişəm,
Yazın həsrətindəyəm.
Könlümü dilləndirən
Sazın həsrətindəyəm.

* * *

Köhnə hamam, köhnə tas...
Bir ümidin, bir səbrin,
bir nurun arxasınca
ha qaçsam da, çatmadım.

Yapışmaq istəsəm də,
Bir ömrün dağ yolunda
Şəfəq olub söküldü,
Yağış olub töküldü,
Duman olub çəkildi...
Köhnə hamam, köhnə tas...

Yarımçıq arzu gördüm
burulğanlı yamacda.
Gülən bir yaz günündə
çiçəklər ləçək olub
bircə anda sovruldu.
Bir ömrün yollarında
burulğan da yükləndi,
çəkib, çəkib yoruldu.

Dedilər, qərib ölüb;
Qəriblik də qəribə.
Sən demə, bütün dünya
Qürbət imiş qəribə

Bu yas nə qəribə yas?
Kim yaşadı bu ömrü,
heç özü də bilmədən?..
Bu ömür heç olmayıb,
Olmayıbmış əzəldən.

Kaspi.-2018.-8-10 dekabr.-S.23.